**Azərbaycan Televiziyası – 65**

***14 fevral günü 65 ildir ki, Azərbaycanın milli təqvimində yeni bir başlanğıcı – Azərbaycan Televiziyasının fəaliyyətə başlamasını nişan verir. 65 il əvvəl həmin gün "Göstərir Bakı!" təqdimatı ilə ilk addımını atan milli televiziyamız anadilli jurnalistikamızın yaranmasından 81 il sonra Azərbaycanın kütləvi informasiya vasitələri sistemində keyfiyyətcə yeni bir mərhələyə pillə olmuşdu. 81 ildən bəri oxuculara və 30 il idi ki, dinləyicilərə ünvanlanmış jurnalistikamız televiziya yayımına yiyələnməklə tezliklə respublikanın hər guşəsini və hər mənzilini əhatə edəcək kütləvi tamaşaçı auditoriyası qazanmışdı.***

*Azərbaycan Televiziyası xalqımızın milli sərvətidir.*

**Heydər ƏLİYEV**
**Ümummilli lider**

# Azərbaycanı dünyaya, dünyanı xalqımıza tanıdan telegüzgü



Beləliklə, elektrik, telefon, avtomobil, təyyarə, kino, tramvay, radio kimi bir sıra sivil rabitə-nəqliyyat-media şəbəkələrini dünyada ilk mənimsəyib-quran şəhərlər sırasında layiqli yer tutan Bakı canlı teleyayım fəaliyyətinə də gecikmədən qoşulmuşdu. Mütəxəssislər Stalin repressiyasının arxada qaldığı, insanların yavaş-yavaş aşkar ünsiyyətə başladığı bir dövrdə Azərbaycanda televiziya yayımınına başlanmasını, bütövlükdə, cəmiyyət həyatında yeni bir dövrün başlanması kimi qiymətləndirirlər. Doğrudan da, yeni yaranan nəhəng sehirli güzgü nəinki məmləkətin, eləcə də Azərbaycanın daxil olduğu ittifaq dövlətinin və geniş dünyanın hər bir yerinin görüntüsünü və səsini mənzillərdə çay içə-içə izləmək mümkün olmuşdu.

1956-cı ildə ayrıca fəaliyyət göstərən Bakı Televiziya Studiyası 1957-ci ilin oktyabrında Mədəniyyət Nazirliyinin tabeliyindən çıxarılaraq Radioinformasiya İdarəsi ilə birləşdirilib və Azərbaycan SSR Nazirlər Soveti yanında Dövlət Radio və Televiziya Verilişləri Komitəsi adlandırılıb. 1970-ci ildə isə milli teleradio qurumu müstəqil olaraq Azərbaycan SSR Dövlət Televiziya və Radio Verilişləri Komitəsi statusu alıb. 1991-ci ildə bu komitə eyniadlı şirkətə, 2005-ci ildən isə "Azərbaycan Televiziya və Radio Verilişləri" Qapalı Səhmdar Cəmiyyətinə çevrilib.

Milli jurnalistika tarixi̇mizdə yeni mərhələ açan və çoxsahəli fəaliyyəti əhatə edən yaradıcılıq kimi televiziya yayımının 65 illik tarixinin 35 ili sovet, 30 ili müstəqillik dövrünə düşür. Sovet dövründə sürətlə yaranıb formalaşan, texniki və peşəkarlıq baxımından dünya səviyyəsi ilə ayaqlaşan kommunist ideologiyasının kütləvi ruporu sayılan telejurnalistika müstəqillik illərində media azadlığının ən geniş və təsirli vasitələri kimi Azərbaycan dövlətinin və xalqının köklü maraqlarının xidmətindədir.

**Milli televiziyamızın tarixindən onu da öyrənirik ki, ilk sənədlərdə "Bakı Televiziya Mərkəzi" adlanmış obyekt üçün bina və yayım qülləsinin inşasına 1954-cü ildə başlanılıb.** Ünvan isə o vaxtkı efir yayımının imkan və tələbinə əsasən Bakının ən hündür məkanlarından biri seçilmişdi. İndi dünyanın hər yerində "Az.TV" loqosu ilə qəbul edilən teleyayımın məkanı olan həmin yer – onillərdir ki, ölkəmizdə uşaqdan-böyüyə hamının öz mənzili qədər doğma və yaxın bildiyi "Mehdi Hüseyn – 1" ünvanıdır.

Azərbaycanlı inşaatçı və mütəxəssislərin moskvalı, leninqradlı həmkarları ilə birgə ucaltdıqları və o vaxtın avadanlığını quraşdırdıqları Bakı telemərkəzi 1955-ci ilin sonunda təhvil verilmişdi. 1956-cı ilin fevralına qədər Bakı studiyasının sınaq verilişləri yayımlanmışdı. İlk veriliş günündə – fevralın 14-də ekranda əvvəlcə xüsusi tərtibatla hazırlanmış "Göstərir Bakı!" təsviri dalğa-dalğa yayılmış, ardınca yeni populyarlaşan gənc aktrisa Nəcibə Məlikova görünmüşdü. İlk təqdimata "Göstərir Bakı!" sözləri ilə başlayan diktor hər sözü, cümləsi dönə-dönə nəzərdən keçirilmiş mətni oxuyaraq Azərbaycan tamaşaçılarını respublikada televiziyanın fəaliyyətə başlaması münasibətilə təbrik etmişdi. Sonra həmin dövrün məşhur "Bəxtiyar" bədii filmi nümayiş etdirilmişdi.

1956-cı ildə teleqüllənin inşası hələ başa çatmadığından Bakı studiyasının ötürücüsü 44 metrlik adi neft buruğu üzərində quraşdırılmışdı.1957-ci ildə hündürlüyü 180 metr olan qüllə istifadəyə verilmişdi. Bakı studiyası əvvəlcə həftədə 2, sonra 3 dəfə ikisaatlıq proqramla efirə çıxmışdı. İlk aylarda və illərdə televiziya sahəsində ixtisaslı mütəxəssis olmadığından verilişlərin hazırlanmasına radio, qəzet-jurnal, nəşriyyat, kino və teatr əməkdaşları dəvət edilmişdi.

Televiziyada proqramlaşdırma, şəbəkə və model təsəvvürləri verilişlərin hazırlandığı ilk həftələrdə və aylarda formalaşdığına görə tamaşaçılara nəyi və necə göstərmək ətraflı müzakirə edilirdi. Seçim imkanı zəngin olmadığından ilk vaxtlar klassik və estrada musiqisindən ibarət konsertlər, bədii filmlər, teatr tamaşaları, ictimai-siyasi mövzuda müsahibələr, əmək qabaqcıllarının çıxışları nümayiş etdirilirdi, diktor qəzetlərdən 15 dəqiqəlik qısa xəbərlər oxuyurdu. İlk aylarda Bakı studiyası 100-ə qədər bədii film göstərmişdi.

1957-ci il iyunun 9-da ilk dəfə Respublika stadionundan futbol oyunu translyasiya edilmişdi. İyunun 28-də isə həmin stadiondan tələbə və gənclərin festivalı göstərilmişdi. O vaxtdan Dram, Musiqili Komediya, Opera və Balet teatrlarından, Filarmoniyadan, digər konsert salonlarından birbaşa yayımlara başlanılmışdı. 1958-ci ildən proqramlarda publisistik janra üstünlük verilmiş, reportajların sayı artmışdı. Bayram tədbirlərindən, iclaslardan, görüşlərdən birbaşa yayımlar efiri mövzu və obyekt baxımından zənginləşdirmişdi.

1956-cı ildən Azərbaycan Televiziyası efirə həftədə 5 dəfə çıxmağa başlamış və gündəlik həcm 2 saat 20 dəqiqə olmuşdu. 1962-ci ildən gündəlik yayımlanan veriliş və proqramların həcmi 7 saata, 70-ci illərdən 10 saata, 80-ci illərdən 18 saata çatdırılmışdı.

1960-cı il dekabrın 31-də ilk dəfə "Sizinlə birlikdə" Yeni il proqramı nümayiş olunmuşdu. 1965-ci ildə rejissor Rasim İsmayılov "Danışan işıqlar" adlı ilk cizgi televiziya filmini çəkmişdi. 1968-ci ildə fəaliyyətə başlayan "Ekran" Yaradıcılıq Birliyi həmin illərdə bədii, sənədli, portret, cizgi filmlərinin yaradılmasında mühüm rol oynamışdır. 1973-cü ildə bu qurumun adı dəyişdirilərək "Azərbaycantelefilm" Yaradıcılıq Birliyi olmuşdur.

Bakı Televiziyasında çalışan rejissor və operatorlar 1958-ci ildən başlayaraq sənədli televiziya filmləri çəkməyə başlayıblar. Telefilmin ilk dövrlərində yaradıcılıq uğurlarının qazanılmasında Rauf Kazımovski, Arif Babayev, Kamil Rüstəmbəyov, Musa Bağırov, Arif Qaziyev kimi rejissorların xüsusi rolu olub. 1960-cı illərin ortalarında "Şəlalə" televiziya teatrı yaradılıb. Həmin dövrdə Adil İsgəndərov, Məhərrəm Haşımov, Rauf Kazımovski, Ağəli Dadaşov, Arif Babayev, Kamil Rüstəmbəyov, Lütfi Məmmədbəyov, Ağakişi Kazımov, İsmət Səfərəlibəyov, Tahir Tahirov, Kərim Kərimov kimi rejissorlar ekranda sanballı tamaşalar yaradıblar. Artıq 80-ci illərdə Azərbaycan Televiziyasında 50 adda veriliş yayımlanırdı.

1970-ci ildə Heydər Əliyevin göstərişi ilə televiziyanın maddi-texniki bazasını möhkəmləndirmək üçün əsaslı tədbirlər həyata keçirildi. Azərbaycan televiziyası keçmiş SSRİ-nin ən güclü və müasir kollektivlərindən birinə çevrildi. Təməlini 1981-ci ildə ümummilli lider Heydər Əliyevin qoyduğu 310 metrlik yeni televiziya qülləsi 1996-cı il iyunun 7-də ulu öndərin özünün iştirakı ilə istifadəyə verildi. 2005-ci ildən isə Az.TV 24 saatlıq – fasiləsiz yayıma keçib. Son illərdə Azərbaycan Televiziyasının yayımladığı verilişlərə tamaşaçılar dünyanın bir çox ölkələrində də baxa bilirlər.

Yeri gəlmişkən bildirək ki, Azərbaycan Televiziyasının yaranıb inkişaf etməsində misilsiz xidmətləri olmuş, xüsusən ilk televiziya filmlərinin və televiziya tamaşalarının mükəmməl örnəklərini yaratmış görkəmli rejissor, Əməkdar artist Rauf Kazımovskinin oğlu, sonrakı illərdə atasının sənət yolunu bu kollektivdə uğurla davam etdirmiş Əməkdar incəsənət xadimi Ələkbər Kazımovskinin qardaşı, sənət xiridarı Mirmahmud Kazımovski ilə bugünlərdə müsahib olduq.

**Uşaqlıq illərindən Azərbaycan Televiziyasının ilk verilişlərini izləmiş, onun sonrakı inkişafında əlamətdar hadisələri hafizəsində qiymətli mənəvi sərvət kimi qoruyub saxlamış Mirmahmud müəllim bildirdi:**

– Azərbaycan Televiziyasının 65 yaşa çatması onun yaranıb inkişaf etməsində seçilən xidmətləri olmuş bir sənətkarın oğlu kimi mənim üçün çox əziz və dəyərli bir hadisədir. Atamın və qardaşımın bir çox dost və yoldaşlarının on illər boyu çalışdığı, ailəmizlə sıx əlaqədə olmuş bu sevimli kollektivi əlamətdar hadisə münasibətilə səmimi təbrik edirəm.

Atam gənclik illərində radioda çalışmış, baş rejissor kimi onun fəaliyyətinə bir sıra yeniliklər gətirmişdi. Milli radiomuzda ilk teatr tamaşalarına atam quruluş vermiş və teatrımızın ən yaxşı əsərlərini geniş dinləyici auditoriyasına çatdırmışdı. O olmasın, bu olsun", "Bir gəncin manifesti", "Kəllə", "Arxip baba və Lyonka", "Şeyx Sənan", "Səyavuş", "Ölülər", "Kral Lir", "Hamlet", "On ikinci gecə", "Almaz", "Od gəlini", "Fərhad və Şirin", "Qaçaq Nəbi", "Lənkəran xanının vəziri", "Müfəttiş", "Alov" və s. radio tamaşaları o vaxtdan qızıl fondda saxlanılır və bu gün də efirdə uğurla səsləndirilir.

Milli televiziyamız yarandığı gündən onun da baş rejissoru Rauf Kazımovski olmuş və ömrünün sonuna qədər televiziya rejissorluğu sənətinə yorulmadan xidmət etmişdi. Bakı studiyasının ilk çağırış kadrını və ilk verilişlərini atam hazırlamışdı. Rejissor pultu arxasında da ilk dəfə o özü oturmuşdu. Televiziyanın ekranında ilk dəfə səhnələşdirilmək üçün yuxarıdan rus yazıçılarından birinin əsəri məsləhət görüləndə Rauf Kazımovski inadla Nəriman Nərimanovun "Şamdan bəy" tamaşasını hazırlamışdı.

Rauf Kazımovski 1959-cu ildə Moskvada Azərbaycan Ədəbiyyatı və İncəsənəti ongünlüyündə "Böyük teatr"ın səhnəsində dahi Bülbül və Rəşid Behbudov başda olmaqla incəsənət ustalarımızın parlaq çıxışlarının lentə alınmasına şəxsən özü rəhbərlik etmişdi. Muğam ustalarından Xan Şuşinski, Şövkət Ələkbərova və Sara Qədimovanın ifasında "Qarabağ şikəstəsi"nin möhtəşəm bir coşğu ilə səslənməsi Moskva səhnəsində tarixi hadisəyə çevrilmişdi.

Rauf Kazımovski müxtəlif səpkili verilişlər hazırlamaqla yanaşı, bir sıra bədii televiziya filmləri üzərində də həvəslə çalışmışdı. O, "Körpə" "Yun şal", "Poçt qutusu" "Bəşir Səfəroğlu", "General", "Aktrisanın təbəssümü" və s. bədii televiziya filmlərinin həm ssenari müəllifi, həm də quruluşçusu olmuşdu. Atamın 1958-ci ildə lentə aldığı "Kor ərəbin mahnısı" televiziya kinosüjeti Azərbaycan klipinin ilkin variantıdır.

Rauf Kazımovskinin televiziya tamaşaları da çoxdur: "Leyli və Məcnun", "Ölülər", "Danabaş kəndinin əhvalatları", "Hacı Qara", "Laçın yuvası", "Körpüsalanlar", "Cənnətin qəbzi", "Canlı meyit", "Bəxtsiz cavan", "Müsibəti Fəxrəddin", "Ovod", "İt gəzdirən qadın", "Şirvan gözəli" və s. Onun "Füzuli və Üzeyir Hacıbəyli", "Arzular gecəsi", "Bakının qoynunda", "Mavi işıq", "Bayram axşamı", "Bayram verilişi" adlı müəllif verilişləri də televiziya tamaşaları kimi maraqla qarşılanırdı.

**Mirmahmud müəllim atasının həyatından bir epizodu böyük öyünclə xatırladı:**

– Respublikaya rəhbərliyinin ilk vaxtlarında ulu öndər Heydər Əliyev Teleradio Komitəsində olarkən qurumun sədri Rauf Kazımovskini ona təqdim etmək istəyəndə böyük rəhbər demişdi: "Yoldaş Yuisifzadə, mən Rauf Kazımovskini hələ 50-ci illərdə radioda fəaliyyətindən tanıyıram. Onun radiotamaşaları respublikada böyük rezonansa səbəb olmuşdu". Sonra ümummilli lider üzünü atama tutub sözünə davam etmişdi: "Sizin atanız da Azərbaycan teatrının və peşəkar aktyor sənətinin bayraqdarlarından biri olmuşdur. Mir Mahmud Kazımovski son dərəcə vətənpərvər bir ziyalı idi. Televiziyanın ilk illərində ayaq üstə möhkəm dayanmasında cavan, istedadlı baş rejissor kimi sizin böyük zəhmətiniz olmuşdur".

Kiçik qardaşım Ələkbər Kazımovski atamın sənət yolunu layiqincə, şərəf və ləyaqətlə davam etdirmişdir. Ələkbər tələbə ikən, 1974-cü ildə Azərbaycan Dövlət Televiziya və Radio Verilişləri Komitəsində rejissor köməkçisi kimi fəaliyyətə başlamışdı. Kazımovskilər nəslinin ənənəsini yaşatmağı özünə şərəf və borc bilən sənətkar "Azərbaycantelefilm" Yaradıcılıq Birliyində ondan artıq film çəkmişdi. Ələkbərin müxtəlif illərdə hazırladığı tamaşa və verilişləri də tamaşaçıların yaşlı nəsli yaxşı xatırlayır.

**Qayıdaq Azərbaycan televiziyasının müstəqillik dövründə yeni imkanlar və tələblər baxımından fəaliyyətini daha geniş və yüksək səviyyədə davam etdirməsinə.** 1991-ci il oktyabrın 18-də Azərbaycan dövlət müstəqilliyini elan etməsi ilə Azərbaycan Televiziyası da əyalət telekanalından müstəqil dövlətin əsas televiziyasına çevrildi. 30 ildir ki, Azərbaycan Televiziyası öz inkişafının tamamilə yeni mərhələsinə qədəm qoyub. Ötən illərdə yeni redaksiyalar, proqramlar yaradılıb, gənc, peşəkar kadrlar yaradıcılıq prosesinə cəlb olunub, yeni studiyalar qurulub, ən əsası isə yaradıcı prosesdə müasir yanaşma qərarlaşıb.

Bu gün 65 yaşı tamam olan Azərbaycan Televiziyasının tarixi uğurlarını peşəkar yaradıcı heyət davam etdirir. Azərbaycan Televiziya və Radiosunun yubileylərində bir çox teleradio jurnalistimiz və rejissorumuz müxtəlif dövlət mükafatlarına – fəxri adlara, orden və medallara layiq görülüblər.

***Əlamətdar yubiley münasibətilə Azərbaycan Televiziyasının böyük kollektivini 102 yaşlı "Xalq qəzeti"nin yaradıcı heyəti və oxucuları adından təbrik edir, onlara milli teleməkanda yeni uğurlar arzulayırıq.***

*Tahir AYDINOĞLU,*
*"Xalq qəzeti"*